# Naxçıvan teatrının Aydın Şahsuvarov səhifəsi

Aydının doğulduğu yer Naxçıvan teatrına (söhbət teatrın köhnə binasından gedir) çox yaxın idi və rəhmətliyin özü həmişə deyərdi ki, uşaqlığımız oralarda keçib. O vaxtlar teatr "Böyük dağ" deyilən yerdə idi. Həm qış salonu, həm də yay salonu var idi. Aydın bunu da deyərdi ki, uşaqdıq, imkanımız yox idi bilet alaq. Dırmaşardıq böyük ağacların üstünə (yay salonu nəzərdə tutulur) və böyük həvəslə artistlərin oyununa tamaşa edərdik. Və balaca Aydının ağlına da gəlməzdi ki, nə vaxtsa o da teatrda işləyəcək və maraqlı rollarıyla diqqət çəkəcək və bir neçə on illiklər ötəndən sonra böyük bir titulun, Azərbaycan Respublikasının xalq artisti kimi fəxri adın sahibi olacaq.

Nəysə...Texnikumu bitirdi, təyinatla Mincivana gəldi, maşinist köməkçisi işlədi və sonra ordu sıralarına çağırıldı. Belə oldu onun qısa ömür bioqrafiyası.

Ordu sıralarından birbaşa Naxçıvan teatrına gəldi (1955). Onda Naxçıvan teatrının direktoru və baş rejissoru Miribrahim Həmzəyev idi. Və beləliklə Aydın Ağa oğlu Şahsuvarovun teatr günləri başlandı. Düz 31 il bu qədim sənət ocağında bir-birindən dolğun rollar silsiləsi yaratdı.

Öncədən deyim ki, Aydın xarakter ustasıydı. Obrazla yaşamağı gözəl bacarırdı. Hissli, duyğulu, anımlı aktyor idi. Sənət haqqında bilgiləri də çox idi. Bu aktyor üçün ən lazımlı amildir. O, gözəl başa düşürdü ki, sənətkar savadlı, məlumatlı, dünyagörüşlü olmalıdır.

Aydın Şahsuvarov 55 bahar yaşadı. 1931-ci ilin yanvar ayının 31-də dünyaya gəldi və 1986-cı ilin iyun ayının 2-də dünyadan getdi. Yaşının və sənətinin ən kamil çağında. İndi qalsaydı 75-ci baharını yaşayacaq idi. Heyf yaşamadı, daha zəngin xarakterli rollar yaradacaq idi. Yaşamadı. Min heyf. Bu da bir göynəmli, ağrılı yerimizdir. Neyniyək, nə edək, insan Tanrı qarşısında acizdir.

Bir açıq sağlam həqiqəti deməliyik. 31 illik teatr ömürlüyündə çox-çox rollara maraqlı səhnə həyatı bəxş etdi. Sevildi, alqışlandı, təbrikləndi. Belə yaşadı, belə ömür etdi: Ağlar-güləyən.

> ***...Uşaqlığın kövrək və romantik qayğıları arxada qaldı. Aydın Bakıya getdi, dəmiryol texnikumunda oxudu və oxuduğu illərdə özfəaliyyət dram dərnəyinə üzv yazıldı, orada yeni dostlar tapdı və bu dərnəyin fəallarından biri oldu. O vaxtlar indi məşhur gülüş ustası, xalq artisti Hacıbaba Bağırov da həmin dərnəyin üzvü idi. Elə o vaxtlardan Aydında aktyor olmaq həvəsi yarandı... Bu istək, bu arzu onun daxili aləmindən gəlirdi.***

Həmişə Aydın haqqında düşünəndə nədənsə onun böyük istedadla yaratdığı bir neçə obrazı yada düşür. Nazim Hikmətin Vera Tulyakova ilə yazdığı "Kor padşah" dramında Kor padşah, Cəlil Məmmədquluzadənin "Ölülər" qəmli komediyasında Şeyx Əhməd, Anarın "Adamın adamı" komediyasında Fənd Fərəc, Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" operettasında Hambal, Kəmalə Ağayevanın "Məhsəti" mənzum dramında Xətib...bir-birindən fərqli müxtəlif xarakterlər və ayrı-ayrı tərcümeyi-hallı insanlar. Kor padşah zalımlığı, müstəbidliyi, amansızlığıyla diqqəti cəlb edirsə, Şeyx Əhməd riyakarlığı, dələduzluğuyla yadda qalırdı. Fənd Fərəc adından göründüyü kimi ona-buna fırıldaq gəlməyilə, hambal nadanlığı, kütbaşlığıyla aktyor tərəfdən uğurla ifa olunurdu. Xətib tamam mənfi xislətli cəllad idi.

Bütün bu insan xarakterlərini Aydın Şahsuvarov yaradırdı səhnədə. Ustalıqla rəsm olunan bu obrazlar özünün təbii və emosional ifasıyla nəzərlərdə diqqətlənirdi. Aktyor gözəl başa düşürdü ki, oynadığı bu obrazlar ayrı-ayrı insan xarakterləridir. Qiyafəsi də, yerişi də, duruşu da, danışığı da, qrimi də başqa-başqadır. Söhbət burasındadır ki, aktyor bu insanların daxili aləmini düzgün səciyyələndirirdi. Koloritli obraz yaratmaq üçün axtarışlar aparırdı. Və buna da müvəffəq olurdu. Aydın Şahsuvarov ümumən narahat və həmişə də axtarışda olan sənətkar idi.

Bu rolları Aydın Şahsuvarovun Naxçıvan teatrındakı unudulmaz səhifələri adlandırmaq olar.

Təkcə bunlarmı? "Vaqif" mənzum dramındakı əhdə vəfalı, düz ilqarlı, geniş qəlbli şair Vidadi də Aydının repertuarına zənginlik gətirən maraqlı rollarından sayılmalıdır. Çox sevərliklə bu əlvan siyahıya N.B. Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasındakı Qıdı Kirvəni də əlavə etmək lazım gəlir. Vidadi təmkini, iradəsi, sədaqəti və səmimi dostluğuyla, Qıdı Kirvə məzəli hərəkəti, şuxluğu və hazırcavablığıyla fərqlənirdi. Bunlar da bir-birindən fərdi surətdə seçilən, ayrı-ayrı əqidə sahibləridirlər. Şair Vidadi hara, Qıdı Kirvə hara? Ən başlıca amil buydu ki, ifa təkmil və dürüst idi. Aktyor xarakter yaratmağı gözəl bacarırdı. Deməli aktyorun şərhi yerində idi.

Azərbaycanın əməkdar incəsənət xadimi, görkəmli rejissor Baxşı Qələndərli (1903-1985) həmişə de-

yərdi ki, Aydın Şahsuvarov xarakter yaratmağı gözəl bacarır. Onunla işləmək adama xüsusi zövq verir. Mən Aydınla çox tamaşalarda işləmişəm. "Məhsəti" tamaşasında onun sənət keyfiyyətlərini yaxından duydum. O, Xətib rolunu gözəl yaratdı. "O olmasın, bu olsun" tamaşasındakı Hambal necə də şirin və duzlu idi. "Eşq və intiqam"dakı Şahbaz bəy qaniçən və rəzil idi.

Aydın 55 yaşında bizləri tərk etdi. Həyatda çox sakit, təmkinli, dinməz-danışmaz, amma səhnədə xalq artisti Firuzə Əlixanova demişkən, od-alov idi. Gözəl-gözəl insan xarakterləri yaradırdı. K.Simonovun "Dördüncülər" əsərində Naməlum adam, V.İvanovun "Zirehli qatar 14-69" dramında Obab, V.Lavrenyevin "Hücum" pyesində Yartsev, Lore de Veqanın "Nə əldən qoyur, nə yardan doyur" əsərində Fabyo, K.Xudayevin "Mənim qaynanam" komediyasında Albadam, Ə. Əylislinin "Quşu uçan budaqlar" lirik psixoloji dramında Qədir, C.Cabbarlının "Od gəlini" əsərində Altunbay, S. Vurğunun "Komsomol" poemasında Mirpaşa, Karlo Holdoninin "Mehmanxana sahibəsi" komediyasında Markiz, Ramiq Muxtarın "Üfüqlər qızaranda" dramında Fərəc bəy, İmran Qasımovun "Nağıl başladı" pyesində Qurban... (bu siyahını xeyli artırmaq olar) kimi rollar xüsusi diqqət çəkirdi. Təbii ki, bu səhnə surətləri də ona az şöhrət qazandırmamışdı.

Aydın Şahsuvarovun səhnə ömürlüyündə Teymurləng obrazı xüsusi bir mərhələ təşkil edir. Dramaturq Həmid Arzulunun "Əlincə Qalası" tarixi dramında Aydın Şahsuvarov Teymurləng rolunu özünəməxsus bir ifada oynamışdır. Aktyorun ifa təqdimində Teymurləng müstəbid, zalım, amansız, hətta öz oğlu Miranşaha (V. Əsədov) qarşı zülmkar bir tirandır. Bu rol Aydının Naxçıvan teatrında oynanılan sonuncu səhnə surətlərindən biridir. Amma milli teatr tariximizə cazibədarlıq, zənginlik gətirdi. Onun və teatrımızın ömürlüyündə yaşadı. Yaşadı, elə bu gün də yaşayır, xatırlanır, yad edilir bizim gözəl dostumuz və gözəl aktyorumuz Aydın Şahsuvarov.

Aydının yaşamalı illəri qarşıdaydı. O, İblis, Knyaz, Ağa Məhəmməd şah Qacar...oynamağa hazırlaşırdı. Tale imkan vermədi. Nəvə görmək istəyirdi...Bu da qismət olmadı ona. Arzuları yarımçıq qaldı. Amma Azərbaycanın xalq artisti (1984) kimi, istedadlı bir aktyor kimi, mehriban və yanarlı bir insan kimi milli teatr tariximizin salnaməsinə düşdü. Və Naxçıvan teatrının Aydın Şahsuvarov səhifəsini yaratdı. Zəngin və mənəviyyatlı rollarıyla.

Aydın bir soyuq, sazaqlı, tufanlı qış günündə - 31 yanvar 1931-ci ildə Naxçıvanın qədim "Sarvanlar" məhəlləsində dünyaya gəldi. Və bir isti, bürkülü yay günündə - 2 iyun 1986-cı ildə - 55 yaşında sənətdaşlarından, sevgili tamaşaçılarından ayrıldı. Bizlər Aydınsız qaldıq, Naxçıvan teatrı da Aydınsız yaman yetim göründü. Bu ayrılığın, bu nisgilin qəmini, dərdini elə bu gün də çəkirik, sabah da çəkəcəyik. Heyf. Min ağrılarla heyf! Aydın, köhnə dost, gözəl aktyor, səndən yox idi. Vallah, billah, yox idi. Bu gün də varsan, sabah da olacaqsan. Neyniyək, bu da bir tale qismətidir. Dünyaya gəldin, gözəl-gözəl rollar düzümü yaratdın. Və heç kimə, heç bir əziyyət vermədən bu dünyadan köçdün. Bu dünyada görmədiklərini, barı o dünyada görəsən.

***Cəlil VƏZİROV,***
***teatrşünas***

Həyatı çox sevirdi. Tanrının yaratdıqlarına möcüzə kimi baxırdı. Hər şeydə ilahi bir gözəllik axtarırdı. Hər şey onun nəzərində gözəl və qəşəng idi... Gözəllik və qəşənglik... Bu barədə onun öz mülahizələri var idi. Həmişə söylərdi: "Qəşənglik daha çox zahiri əlamətdir, aldadıcı və keçicidi. Gözəllik isə zahiri olduğu qədər də daxili keyfiyyətdi, aldadıcı deyil çəkicidi, keçici deyil, qalıcıdı... Bəli, bu gözəllik idi onun estetik həzz mənbəyi...

Görkəmli opera ustaları Fidan və Xuraman Qasımovaların sənətinin pərəstişkarı idi. "Özləri də sənətləri kimi gözəldir. Hər dəfə bu gözəlliyə tamaşa edəndə içim işıqla dolur. Bu işıqdı məni yaşadan" deyərdi o.

Bəli, o sözün əsil mənasında gözəllik aşiqi idi. Onun nəzərində incəsənət aləmi bu gözəlliyin fövqündə dayanırdı. Ona görə də ömrüboyu bü gözəlliyə can atmışdı ...

Hələ orta məktəbdə ikən şerlər yazır, dram dərnəyində çıxışlar edir. Milli Dram Teatrının səhnəsində hazırlanan "Solğun çiçəklər" tamaşasında Bəhram obrazının ifasından (H.Salayev) sehirlənib aktyor olmaq eşqinə düşür. Sənədlərini Teatr İnstitutunun "Dram və kino aktyorluğu" şöbəsinə verir və xoşbəxtlikdən daxil olur.

Hələ tələbə ikən H.İsmayılovun çəkdiyi "Böyük dayaq" filmində komsomol Nəcəf roluna dəvət alır. Filmin uğurlu alınmasında görkəmli sənət xadimləri ilə bərabər onun da zəhməti az olmur. Amma nədənsə bu onun çəkildiyi ilk və son film olur...

Təhsil aldığı müddətdə kurs və diplom tamaşalarında bir çox obrazların ifaçısı olur.

Tələbə-rejissor kimi R.Sarabski ilə birgə İ.Rannetin "Azmış oğul" pyesinə quruluş verir və uğur qazanır.

İnstitutu fərqlənmə diplomu ilə bitirdikdən sonra böyük aktyor və rejissor R.Təhmasibin məsləhəti ilə doğma təhsil ocağında qalır və "Aktyor sənəti və rejissorluq" kafedrasında baş laborant kimi fəaliyyətə başlayaraq bundan sonrakı həyatını teatr təhsilinə həsr etməli olur.

O, çox kübar insan idi. Yerişi, oturuşu-duruşu, insanlarla ünsiyyəti, hətta saç düzümü, geyimi, ümumiyyətlə səliqə-səhmanı - hər bir şey əndazəsində idi. Həmişə şən, qıvraq və şux görünər-